

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 97 (20.998)

23 may 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Avropa Şurasının Baş katibi Torbörn Yaqlandı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi qeyd olundu, sivilizasiyalararası dialoqda və Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində Azərbaycanın rolu xüsusi vurğulandı, əməkdaşlığımızın inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Avropa Şurası Parlament Assambleyasının sədri xanım Ann Brasörün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Bakı Sərgi Mərkəzində "World Food Azerbaijan-2014" XX Azərbaycan Beynəlxalq Qida Sənayesi və "Agrihort Azerbaijan-2014" VIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olmuşdur.



## Beynəlxalq Biomüxtəliflik Günü qeyd olunub

AMEA Naxçıvan Bölməsinin Nəbatat bağında 22 may – Beynəlxalq Biomüxtəliflik Günü ilə əlaqədar elmi konfrans keçirilib. Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, biomüxtəliflik Yer kürəsində həyatın müxtəlifliyini təcəssüm etdirməklə bəşəriyyəti ekosistemlərin canlı məhsulları ilə təmin edir, başlıca həyat mənbəyi kimi davamlı inkişafa və ərzaq təhlükəsizliyinə nail olunmasında ən mühüm vasitə rolunu oynayır.

Bildirilib ki, biomüxtəliflik cəhətdən özünəməxsusluğu ilə seçilən Naxçıvanda biomüxtəlifliyin qorunması istiqamətində məqsədyönlü işlər həyata keçirilib. Təsadüfi deyildir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təmina-tına dair Dövlət Proqramı"nda da dayanıqlı ərzaq təminatının əldə olunması sahəsində nəzərdə tutulan əsas vəzifələrdən biri ekoloji tarazlığın və biomüxtəlifliyin qorunması istiqamətində siyasətin davam etdirilməsidir. Proqramın həyata keçirilməsi üzrə tədbirlər planına uyğun olaraq, biomüxtəlifliyin qorunması, saxlanması və istifadəsi, milli genetik bankın zənginləşdirilməsi tədbirlərinin həyata keçirilməsi Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirlikləri ilə yanaşı, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə tapşırılmışdır və bu iş həyata keçirilməkdədir.

Elmi konfransda AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tariyel Talıbov "Beynəlxalq aləmdə biomüxtəliflik və onun qorunma strategiyası" mövzusunda məruzə edib. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Elçin Kazımovun "Naxçıvan Muxtar Respublikasında biomüxtəlifliyin qorunma vəziyyətinin nəticələrinə dair" çıxışı olub. Qeyd olunub ki, ölkəmiz 2000-ci ildə biomüxtəliflik üzrə Konvensiyaya qoşulub. 2001-ci il mayın 23-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılmasından sonra ətraf mühitin və bioloji müxtəlifliyin qorunmasına diqqət daha da artırılıb. Ölkə Prezidenti tərəfindən 2006-cı il martın 24-də təsdiqlənmiş "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunub saxlanması üçün milli strategiya və fəaliyyət planı" respublika ərazisində bioloji müxtəlifliyin qorunması baxımından son dərəcə böyük əhəmiyyət kəsb edir.

Sonra konfrans iştirakçıları Nəbatat bağında istixanada yetişdirilən nadir bitkilər və nadir bitki kolleksiyasına baxıblar.

✍ E.KƏLBİZADƏ

## Tarla seminar müşavirəsi keçirilmişdir

*Dünən Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü ilə Babək rayonunun Qaraqala kəndində torpaq mülkiyyətçisi Faiq Bayramova məxsus kartof sahəsində tarla seminar müşavirəsi keçirilmişdir.*

Tədbiri giriş sözü ilə Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev açaraq müşavirənin məqsədi barədə məlumat vermiş, bölgənin iqtisadiyyatında kartofçuluğun xüsusi yeri olduğunu bildirmiş, bu sahə ilə məşğul olan torpaq mülkiyyətçilərinin həhtərəfli qaygı ilə əhatə edildiklərini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev aqrar sahədə əldə olunan nailiyyətlər və qarşıda duran vəzifələr haqqında danışmışdır.

Nazirliyin mütəxəssisləri Əsgər Həsənov və Bəybala Rüstəmov kartof bitkisinin becərilməsində tətbiq olunan aqrotexniki tədbirlər, zərərverici və xəstəliklərə qarşı mütərəqqi üsullar haqqında məlumat vermişlər.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılmış, seminar iştirakçılarına buklet-informasiya kitabçaları paylanmışdır.

Qeyd edək ki, belə seminar-müşavirələr digər yaşayış məntəqələrində də keçiriləcək.

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti*

*May ayının 22-də Sədərək Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Sədərək kəndində Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən, tikintisinə icazə tələb olunmayan*

## Prokurorluq orqanları hüquqi maarifləndirmə tədbirlərini davam etdirir

*tikinti obyektləri, həmçinin ətraf mühitin mühafizəsi və ekoloji-hüquqi məsuliyyət məsələlərinə həsr olunmuş maarifləndirici tədbir keçirilmişdir.*



Tədbirdə Sədərək rayon prokuroru, baş ədliyyə müşaviri Teymur Vəliyev "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən, tikintisinə icazə tələb olunmayan tikinti obyektləri" mövzusunda məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi 29 iyun 2012-ci il tarixli Qanunla təsdiq edilmiş və 2013-cü il yanvarın 1-dən qüvvəyə minmişdir. Həmin məcəllənin şəhərsalma və tikinti qanunvericiliyinin təyinatı adlanan 1-ci maddəsinin tələbinə əsasən, Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyi şəhərsalma və tikinti fəaliyyətinin hüquqi əsaslarını, prinsiplərini, eləcə də dövlətin, bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin şəhərsalma və tikinti fəaliyyəti sahəsində hüquq və vəzifələrini müəyyən edir.

"Məcəllənin 79-cu və 80-ci maddələrində tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinin tikintisinin aparılması qaydaları və tikintiyə başlamaq üçün məlumatlandırma icraatının qaydaları öz əksini tapmışdır", – deyən Teymur Vəliyev qanunun ayrı-ayrı maddələri barədə sakinlərə ətraflı məlumat vermişdir. Vurğulanmışdır ki, tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinin tikintisinin aparılması üçün adıçəkilən məcəllənin 80-ci maddəsində məlumatlandırma icraatının qaydası nəzərdə tutulmuşdur. Belə ki, mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan yaşayış evlərinin tikintisi ilə bağlı məlumatlandırma icraatı həyata keçirilir və onların tikintisi üçün tikinti layihəsinin yalnız memarlıq-planlaşdırma bölməsinin hazırlanması tələb olunur.

Məlumatlandırma icraatı ilə bağlı tikinti niyyəti barədə müraciətin daxil olduğu vaxtdan 3 ay ərzində tikinti layihəsinə irad olmadıqda yerli icra hakimiyyəti orqanı həmin müddətin bitdiyi vaxtdan 3 iş günü ərzində barəsində məlumatlandırma icraatının tətbiq olunduğu obyektin tikintisi haqqında müvafiq icra hakimiyyəti orqanına – Fövqəladə Hallar Nazirliyinə məlumat verməlidir.

Sonra Sədərək rayon prokurorunun köməkçisi Elvin Zeynalov ətraf mühitin mühafizəsi barədə çıxış edərək bildirmişdir ki, ölkəmizdə son illərdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair bir sıra normativ-hüquqi aktlar qəbul edilmiş, təbiətin qorunması sahəsində mühüm addımlar atılmışdır. Nəzərə çatdırılmışdır ki, ətraf mühitə ziyan vurulması nəticəsində bitki örtüyünün, heyvanların, su obyektlərinin, bioloji sərvətlərin məhv olması, atmosferin çirklənməsi və sair hallar baş verir. Odur ki, ətraf mühitin qorunması günümüzün vacib məsələlərindən biridir və bu iş hər kəsin vətəndaşlıq borcu olmalıdır.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

✍ Kərəm HƏSƏNOV

## Operativ vergi nəzarəti tədbirləri gücləndirilir

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən aldığımız məlumata görə, 2014-cü ilin ötən ilk 4 ayı ərzində nazirlik və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən ödəyicilərin aşkarlanması, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, işəgötürənlərlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 37 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür.

Məlumatda o da bildirilir ki, həyata keçirilən operativ tədbirlər zamanı 8 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 12 vergi ödəyicisi tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və ya valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanmışdır.

Operativ vergi nəzarəti tədbirləri 6 vergi ödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 6 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olmaları, 1 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları müəyyən edilmişdir.

Keçirilən nəzarət tədbirləri zamanı 4 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları da aşkarlanmış və həmin şəxslər barəsində müvafiq tədbirlər görülmüşdür. Həmin şəxslərdən 3-nün fəaliyyəti şəxsi nəqliyyat vasitələrindən istifadə etməklə sərnişindaşıma xidməti, 1 şəxsin fəaliyyəti isə səyyar qaydada qanunsuz olaraq ticarət fəaliyyəti göstərmələri olmuşdur.

Aparılan operativ nəzarət işləri zamanı tətbiq edilmiş 3400,0 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin tamamilə büdcəyə ödənilməsi təmin edilmişdir.

Qeyd olunan dövr ərzində 27 obyektdə nəzarət-kassa aparatları quraşdırılmışdır.

2014-cü ilin qeyd olunan dövründə vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 11 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr aparılmış və müşahidələr zamanı müşahidəyədək olan dövriyyələrlə müqayisədə 16850,2 manat dövriyyə artımına nail olunmuşdur. Bu da hər bir vergi ödəyicisinə məxsus obyekt üzrə orta hesabla 30,6 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi deməkdir.

Operativ vergi nəzarəti tədbirləri davam etdirilir.

Əlavə olaraq, görülən tədbirlər nəticəsində 2014-cü ilin ilk 4 ayı ərzində bank orqanları tərəfindən ticarət, iaşə, xidmət və dövlət rüsumu alan idarə, müəssisə və təşkilatlarda qoyulmuş 331 ədəd POS-terminalın vergi orqanlarında qeydiyyatdan keçirilməsi təmin edilmişdir. Bu işlər sürətlə davam etdirilir. Yaxın vaxtlarda böyük obyektlərin əksəriyyətində POS-terminalların tətbiqinə nail olunacaq.

✍ Muxtar MƏMMƏDOV

Naxçıvan Muxtar Respublikası – 90



# Qədim diyarın yeni intibahı

## Çağdaş Naxçıvan ümummilli lider Heydər Əliyevin arzularının gerçəkliyə çevrildiyi məkandır

*Ölkəsinin ümumi inkişafı və soydaşlarının rifahı naminə elmi axtarışlarda, quruculuq layihələrinin və proqramlarının hazırlanmasında uzun illər fəal iştirak etmiş elm adamı, yaşlı ziyalı üçün Vətəninin tərəqqi yoluna çıxmasını, həyatın gözəlləşməsini, ötən nəsillərin arzularının gerçəkləşməsini görməkdən yaxşı nə ola bilər?! Bu baxımdan təmsil olunduğum veteranlar, ağsaqqallar nəsli özünü xoşbəxt saymaqda haqlıdır. Bizi və bütövlükdə, xalqımızı bu xoş günlərə bu günlərdə anadan olmasının 91-ci ildönümünü ümumxalq bayramı kimi qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin işıqlı, ölməz ideya və əməlləri qovuşdurmuşdur.*

Bizim nəslin bayraqdarı, böyük müəllimi və öyüncü olan dahi Heydər Əliyevin çətin, ağır mübarizələrdə müəyyən etdiyi müstəqil dövlətimizin strateji inkişaf yolu artıq 11 ildir ki, ölkəmizi sürətli, hərtərəfli yüksəliş və yeniləşmə yolu ilə öz tarixinin ən yüksək uğurlarına qovuşdurmuşdur. Təkcə onu demək kifayətdir ki, bu müddətdə ulu öndərin ideya və əməllərinin ən layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizin iqtisadiyyatı 3 dəfə artıb-böyümüş, Azərbaycan regionun lider dövləti, keçmiş ittifaqın ən sürətlə inkişaf edən respublikası olmuşdur. Sürətli inkişaf, əsaslı yeniləşmə bizim günlərdə ölkəni başdan-başa əhatə etmişdir.

11 il əvvəl ümummilli liderin ali idarəetmə missiyasını qəbul edən parlaq siyasi xadim İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olacağını, ölkənin hər yerini eyni diqqət və qayğı ilə inkişaf etdirəcəyini bəyan etmişdi. O taleyüklü günlərdə müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev yalnız ölkəmizdə deyil, həm də dünyada böyük ümidlər bəslənilən İlham Əliyevə özünün böyük amallarının davam etdirilməsini, yarımçıq qalmış arzularının gerçəkləşdirilməsini həvalə edərək əbədiyyətə qovuşmuşdu. Yenitipli siyasətçi və yetkin dövlət rəhbəri kimi möhtərəm İlham Əliyev ötən dövrdə ulu öndərin böyük etimadına və özünün ucadan elan etdiyi vədlərinə sadiq olduğunu dönə-dönə sübuta yetirmişdir.

Xalqımızın düşmənlərinin məkrli planlarının ötən əsrin 20-ci illərində ərazicə Azərbaycandan aralı saldığı qədim türk yurdu, çoxəsrlik dövlətçilik tariximizin şanlı ünvanlarından biri Naxçıvan ayıqsayıq və qəhrəman övladlarının basılmaz iradəsi ilə taleyinin Azərbaycandan ayrılmasına imkan verməmişdir. Beləliklə, erməni millətçilərinin "nifaq almasına" çevirib ələ keçirmək istədiyi bu torpaq 90 ildir ki, Azərbaycanın tərkibində ərazi muxtariyyəti təşkil edərək özünün mübariz tarixini yaşamaqda və yaratmaqdadır.

90 il əvvəl sovet imperiyasının yarımaslılığı zəminində milli özünüqoruma zərurətinin təsdiqi kimi ərsəyə gələn bu muxtariyyət respublikamız suverenlik qazandıqdan sonra ümummilli lider Heydər Əliyevin zəkası və iradəsi ilə müstəqil dövlətimizin Konstitusiyasında Azərbaycan Respublikası daxilində Naxçıvanın "muxtar dövlət" statusu ilə təzələndi və möhkəmləndirildi. Bu status Naxçıvan Muxtar Respublikasının müstəqil Azərbaycan dövlətinin tərkibində mövcudluğunun, hərtərəfli inkişafının, varlığını qoruyub saxlamasının mötəbər, dünyada qəbul olunan siyasi-hüquqi təminatıdır.

Bu il yanvarın 14-də Naxçıvanın muxtariyyət tarixinin 90 illiyinin ümummilli səciyyə daşıyan, önəmli hadisə kimi qeyd edilməsi ilə bağlı Prezident İlham Əliyevin sərəncamı elan olunanda, ilk olaraq, düşüncəmdə yuxarıda söylədiyim fikirlər yarandı. Naxçıvanın son illərdə çatdığı çox yüksək inkişaf göstəricilərinin Azərbaycanın dövlət müstəqilliyi qazanmasının, ümummilli lider Heydər Əliyevin məhv olmaq təhlükəsindən xilas edərək inkişaf, sabitlik, dönməz suverenlik yoluna çıxarmasının, Prezident İlham Əliyevin ulu öndərin Naxçıvanla bağlı arzu-istəklərinin gerçəkləşməsi üçün bütün zəruri tədbirləri həyata keçirməsinin, naxçıvanlıların ulu öndərin idarəetmə məktəbinin istedadlı yetirməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə gecəli-gündüzlü, fədakarcasına çalışıb işləmələrinin nəticəsi, bəhrəsi olduğunu bir daha yəqin etdim.

Sərəncamda, haqlı olaraq, Naxçıvanın bugünkü yüksək sosial, iqtisadi və mədəni inkişafı 90 illik muxtariyyət tarixinin zirvəsi kimi dəyərləndirilir: "Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir".

Bu yüksək qiymətin davamı olaraq, aprelin 7-8-də Naxçıvanda keçirilən yubiley şənliklərində iştirak edən Prezident İlham Əliyev təntənəli yığıncaqdakı nitqində naxçıvanlıların doğma diyarın çiçəklənməsi naminə göstərdikləri tarixi hünərə münasibətini belə açıqladı: ***"Bu səfər mənim Naxçıvana son 10 il ərzində 11-ci səfərimdir. Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır...***

***Dünən son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları təbrik edirəm... Bu gün Naxçıvan, sözün əsl mənasında, inamla, uğurla inkişaf edir".***

Doğrudan da, müstəqillik illərində, xüsusən 1995-ci ildən bəri Naxçıvan tariximizdə tutduğu şanlı mövqeyə, 90 illik ərazi muxtariyyəti statusunun yaratdığı imkanlara layiq uğurlar qazanmışdır. Naxçıvanın bugünkü intibahı onun Azərbaycanın həyatı ilə nə qədər sıx bağlı olduğunu, bu diyarın ölkəmiz üçün necə müstəsnalıq təşkil etdiyini bir daha dünyaya sübut edir. Yeri gəlmişkən, bildirim ki, əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağın da tarixən inkişafı, xoş günləri Azərbaycanla bağlı olmuşdur. Erməni separatçıları bu ərazini zorla Azərbaycandan ayırmaqla sanki budağı gövdədən qoparmışlar.

Naxçıvanlılar bu diyarın Azərbaycana bağlılığını yeni bir intibahla sübuta yetirsələr də, erməni separatçılarının Dağlıq Qarabağın taleyini Ermənistanla bağlamaq cəhdləri sosial-iqtisadi baxımdan iflasa uğramışdır. Dağlıq Qarabağın miskin tənəzzülü onun Azərbaycansız yaşaya bilmədiyini bir daha təsdiqləyir. Bu baxımdan Naxçıvanın çağdaş tərəqqisini ərsəyə gətirənlər Azərbaycan həqiqətlərinin təntənəsinə nail olmuş, Ermənistan yalanlarının puça çıxmasına öz əməli töhfələrini vermişlər.

Bir geofizik alim və rəssam kimi məni Naxçıvanla çoxillik yaradıcılıq əlaqələri və sıx ünsiyyət telləri birləşdirir. Dünyanın nadir geoloji landşaft qatlarından olan Naxçıvanın zəngin təbiəti sərt iqliminə baxmayaraq, lap qədimdən həyat üçün əlverişli sayılmış, ulu babalarımız bu yerlərə bizim günlərədək sahiblik etmişlər. Naxçıvan tarixin ən çətin günlərində həmişə özünü hər şeylə təmin etdiyi kimi, blokadada yaşadığı 25 ildən artıq müddətdə də bütün çətinliklərə sinə gərmişdir. Bu gün naxçıvanlılar yenə əksər mallara tələbatı yerli istehsal hesabına ödəyirlər. Yüksək elektrik enerjisi sərfi dövründə muxtar respublika özünü bərpaolunan mənbələrdən alınan enerji ilə tam təmin edir.

Naxçıvanın zəngin təbii ehtiyatlarından istifadə etmək üçün hazırda məqsədyönlü işlər aparılır. Təkcə onu deyim ki, bu gün Azərbaycanın hər yerində Naxçıvanda qablaşdırılan ən faydalı süfrə duzunu, "Badamlı" və "Sirab" kimi ən qiymətli mədən sularını, neçə-neçə naz-neməti görəndə naxçıvanlıların bu hünərinə əhsən deyirsən. Buna necə sevinməyəsən ki, ermənilərin blokadaya aldıqları Naxçıvan bu gün xaricə elektrik enerjisi verir, kənara onlarla adda məhsul çıxarır. Öz imkanları hesabına yüksək inkişafa və rifaha nail olmaqla bu yerin qadir insanları dövrümüzün "Naxçıvan möcüzəsi"ni yaratmışlar. Artıq ölkəmizdə və xaricdə inkişafın "Naxçıvan modeli" barədə ciddi söhbətlər eşidilir.

Naxçıvan həm də bu günündə ötən sivilizasiyanın bir çox yadigarlarını yaşadır. Hərtərəfli yeniləşmə, geniş quruculuq işləri bu abidələri qorumaq, bərpa etmək, öyrənmək və onlardan faydalanmaqla paralel aparılır. Mən hər dəfə Naxçıvanda olarkən Əshabi-Kəhf, Nuhun məqbərəsi, Möminə xatın türbəsi, Xan sarayı kimi onlarla tarixi abidə və məkanda bərpa-abadlıq işlərinin necə diqqətlə, sevgi ilə aparıldığını görüb naxçıvanlıların öz köklərinə bağlılığının ilahi məqamına heyran qalıram.

Naxçıvanda yeniləşmə prosesi müasir üslubda, milli özünəməxsusluğa uyğun, hərtərəfli, genişmiqyaslı olub, diyarın bütün ərazisini əhatə edir. Naxçıvan şəhəri mahir bir memarın sevimli əsəri kimi yüksək diqqətlə, zövqlə, sistemli şəkildə yenidən qurulur. Rayon mərkəzləri və iri yaşayış məntəqələri də eyni meyar və tələblə abadlaşdırılır, müasirləşdirilir. Ən ucqar kəndlər belə, həyat standartları səviyyəsinə qaldırılır. Yollar, kommunikasiyalar, xidmət obyektləri də yenidən qurulur, ümumi yeniləşməni tamamlayır. Naxçıvanın dağ kəndində Bakının ən müasir məktəbindən geri qalmayan təhsil ocağı və digər sosial obyektləri görəndə yurd sevgisinin nəyə qadir olduğunu əyani görürsən. Dövrümüzün ən müasir texnika və texnologiyaları, nəqliyyat və rabitə vasitələri Naxçıvanda tələbatı ödəyəcək qədər, bir az da artıqdır.

Bir neçə kəlmə də Naxçıvanın təbii gözəllikləri, onu sənətə gətirən rəssamları barədə demək istəyirəm. Təbiət özü sanki Naxçıvanı əlvan bir tablo kimi yaratmışdır. Bu, sərt və çılpaq bir mənzərədir. Məhz buna görə Naxçıvan tarixən tanınmış rəssamlar yetirmişdir. Professional rəssamlığımızın bir qaynağı da Bəhruz Kəngərlinin timsalında Naxçıvanla bağlıdır. Bu gün Naxçıvanda istedadlı rəssamlar öz məktəblərini inamla yaşadırlar. Bu günlərdə onlar Bakıda yubiley sərgisində göstərilən işləri ilə hamımızı heyran qoydular. Naxçıvanlıların, belə yüksək sənət zövqü və duyumu olan insanların mənim əsərlərimə dəyər vermələrini, sərgimi keçirmələrini isə özümə böyük şərəf sayıram. Bu sevimli torpağın bir çox ünvanlarında mənəvi övladlarım olan əsərlərimin "yuva qurması" məni Naxçıvana daha yaxından bağlayır.

Naxçıvan bu gün ulu türk yurdu, qeyrət və hünər diyarı kimi Azərbaycanımızın başını bütün dünyada uca edir, uğurları ilə müstəqil dövlətimizi şöhrətləndirir. Ulu öndər Heydər Əliyevi xalqımıza bəxş edən bu torpaq onun adına, zəkasına, hünərinə, vəsiyyətlərinə layiq bir inkişaf yolundadır. Böyük rəhbər Naxçıvanın nəyə qadir və layiq olduğunu yaxşı bilirdi və bu diyar barədə ən yüksək arzularını bacardığı qədər həyata keçirmişdi. Bu gün Naxçıvan onun arzularının yüksək səviyyədə gerçəkləşdirildiyi bir məkandır.

Qədim Naxçıvanın kökü nə qədər dərindədirsə, qol-budaqları da o qədər ucada, şaxəli və təzə-tərdir. Onun bugünkü gözəlliyi dünənki əzəmətinin yeni məzmun və formada dirçəldilməsi olub, türk ruhunun əbədiyaşarlığından qaynaqlanır.

**Kərim KƏRİMOV**
***AMEA-nın müxbir üzvü, professor, Əməkdar elm və texnika xadimi***
***"Xalq qəzeti", 22 may 2014-cü il***

## "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində seminar-müşavirə

***Dünən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar və Kənd Təsərrüfatı nazirliklərinin təşkilatçılığı ilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin texniki parkında muxtar respublika ərazisində ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, biçin zamanı taxıl zəmilərində işləyəcək kənd təsərrüfatı texnikaları və aqreqatların hazırlığı ilə bağlı səyyar seminar-müşavirə keçirilmişdir.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədovun "Muxtar respublika ərazisində ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə görülmüş işlər və qarşıda duran vəzifələr", həmin nazirliyin Yanğın nəzarəti və yanğından mühafizə işinin təşkili bölməsinin rəisi, daxili xidmət kapitanı Mirtaleh Seyidovun "Muxtar respublika ərazisində ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, taxıl zəmilərində yanğın hadisələrinin baş verməsinin əvvəlcədən qarşısının alınması məqsədilə kənd təsərrüfatı texnikalarına yanğına qarşı texniki baxışların keçirilməsi", Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Texniki siyasət və aqroservis sektorunun müdiri Zərrab Əfəndiyevin "Biçin dövrü ərzində taxıl zəmilərində işləyəcək kənd təsərrüfatı texnikalarının və aqreqatların hazırlıq vəziyyətinə gətirilməsi ilə bağlı görülmüş tədbirlər" mövzularında çıxışları olmuşdur.

Qeyd edilmişdir ki, ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyi qaydalarına əməl edilməsi, tədarük olunan məhsulların vaxtında və təhlükəsizlik qaydalarına uyğun olaraq yığılması qarşıda duran əsas vəzifələrdən biridir. Buna görə də ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi və qabaqlayıcı tədbirlərin keçirilməsi diqqətdə saxlanılmalı, müxtəlif taxıl məhsullarının yığılması, daşınması və emalı dövründə təhlükəsizlik qaydalarına ciddi əməl olunmalıdır.

Çıxış edənlər biçin dövrü sahibkarların və torpaq mülkiyyətçilərinin qarşısında duran vəzifələrdən, taxıl zəmilərində işləyən kənd təsərrüfatı texnikalarının və aqreqatların saz vəziyyətdə olması zərurətindən də bəhs etmişlər.

Tədbirin sonunda iştirakçılara "Ot-taxıl biçini zamanı yanğın təhlükəsizliyi qaydaları" adlı tövsiyə xarakterli yaddaş kitabçaları təqdim edilmişdir.

**Xəbərlər şöbəsi**

# “Naxçıvan – bəşəriyyətin beşiyi” II Beynəlxalq Rəsm Festivalının açılış mərasimi keçirilmişdir






***Mayın 22-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş “Naxçıvan – bəşəriyyətin beşiyi” II Beynəlxalq Rəsm Festivalının açılış mərasimi olmuşdur.***

“Naxçıvan – bəşəriyyətin beşiyi” II Beynəlxalq Rəsm Festivalı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı”na əsasən keçirilir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva mərasimdə çıxış edərək demişdir ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkə həyatının bütün sahələrində olduğu kimi, mədəniyyət sahəsində də əsl intibaha nail olunmuşdur. Ulu öndər tərəfindən əsası qoyulan mədəniyyətə qayğı və mədəni inkişaf siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə məqsədyönlü tədbirlər görülmüş, tarixi-mədəniyyət abidələri bərpa olunmuş və ya yenidən qurulmuş, mədəniyyət müəssisələrinin şəbəkəsi genişləndirilmişdir. Son illər muxtar respublikada Bəhruz Kəngərli Muzeyi yaradılmış, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi üçün yeni bina tikilmiş və birliyin Bəhruz Kəngərli adına Sərgi Salonu yaradılmışdır. Naxçıvan Dövlət Universitetində təsviri incəsənət və rəsmxət, Naxçıvan Müəllimlər İnstitutunda isə təsviri incəsənət müəllimliyi ixtisasları açılmışdır. Bu gün Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq və Estetik Tərbiyə mərkəzlərində, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində gənc rəssamların yetişməsi, rəssamlıq sənətinin tədrisi üçün hərtərəfli şərait yaradılmışdır. Bununla yanaşı, muxtar respublikada Naxçıvan Dövlət Rəsm Qalereyası, 10 məktəbdənkənar müəssisədə və 3 uşaq incəsənət məktəbində rəsm dərnəkləri fəaliyyət göstərir. Həmçinin muxtar respublikada incəsənət adamlarına, eləcə də rəssamlara xüsusi diqqət və qayğı göstərilir. “Naxçıvan – bəşəriyyətin beşiyi” II Beynəlxalq Rəsm Festivalının keçirilməsi də bu diqqət və qayğının daha bir ifadəsidir.

Ülviyyə Həmzəyeva tədbir iştirakçıları adından festivalın keçirilməsinə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirmişdir.



Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov demişdir ki, qədim tarixə, zəngin mədəniyyətə malik olan Naxçıvan torpağı əsrlərdən bəri Şərqin mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Naxçıvan – bəşəriyyətin beşiyi” II Beynəlxalq Rəsm Festivalı qədim diyarımızın zəngin tarixi və bu günü ilə səsləşən gözəl mədəniyyət və sənət bayramıdır. Qeyd olunmuşdur ki, Naxçıvanın mədəni həyatı rəngarəng və çoxçalarlıdır. Bu mədəniyyət hadisələri içərisində təsviri incəsənət və rəssamlıqla bağlı keçirilən tədbirlərin də özünəməxsus yeri vardır. Naxçıvanda istedadlı rəssamların sərgilərinin keçirilməsi ənənə halını almışdır. Son illər tanınmış rəssamlarımızın albom-kataloqlarının nəşri, sərgilərinin təşkili təsviri incəsənətə olan diqqətin ifadəsidir. Naxçıvan rəssamlarının əsərləri ABŞ, Almaniya, Türkiyə, Bolqarıstan, İran İslam Respublikası, Niderland və başqa ölkələrdə nümayiş etdirilir.

“Naxçıvan – bəşəriyyətin beşiyi” II Beynəlxalq Rəsm Festivalının açılış mərasiminin rəsmi hissəsi başa çatdıqdan sonra muxtar respublikanın musiqi kollektivlərinin çıxışları olmuşdur.



Festival iştirakçıları “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olmuşlar. Naxçıvan Muxtar Respublikasının ərazisində aşkarlanan tarixi əşyalar haqqında qonaqlara məlumat verilmişdir. Bildirilmişdir ki, eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar qiymətli eksponatlardandır. Naxçıvanın 5 min illik şəhər mədəniyyəti qonaqlarda böyük maraq doğurmuşdur.

Muzeylə tanışlıqdan sonra fırça ustaları Nuh Peyğəmbərin məzarüstü türbəsini də ziyarət etmişlər.

Sonra festivalın yaradıcılıq hissəsinə start verilmişdir.

Festivalda Azərbaycan, Türkiyə, Qazaxıstan, Rusiya, Gürcüstan, İtaliya və İrandan 33 rəssam iştirak edir.

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin, Naxçıvan Müəllimlər İnstitutunun təsviri incəsənət müəllimliyi ixtisasının müəllim və tələbələri, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəsm dərnəyinin üzvləri, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin şagirdləri tanınmış rəssamların iş proseslərini izləmişlər.

Bu gün Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda festivalda iştirak edən rəssamların çəkdikləri əsərlərdən ibarət sərgi təşkil olunacaqdır. Bununla yanaşı, rəsm festivalının iştirakçıları Naxçıvan Dövlət Universitetinə gələrək tələbə rəssamların əsərlərindən ibarət sərgiyə baxacaqlar.

**“Şərq qapısı”**

# III Kalbalı xan Kəngərlinin həyatından bir örnək

***“Şərq qapısı” qəzetinin 17 may 2014-cü il tarixli sayında Elnur Kəlbizadənin “Laçının işğalından 22 il ötür” məqaləsini, xüsusilə xalq qəhrəmanı Sultan bəy Sultanovun öz dəstəsi ilə Laçın-Zabux yolundakı bir dərədə Andranikin erməni quldur qoşununu mühasirəyə alaraq darmadağın etməsini oxuyarkən tarix elmləri doktoru, professor Şikar Qasımovun “Xalq qəhrəmanı Sultan bəy” monoqrafiyasında oxuduğum maraqlı bir məlumat xatirimdə canlandı.***

Həmin məlumatdan aydın olur ki, bəhs olunan dövrdə, 90 illiyini təntənə ilə yüksək səviyyədə qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasının yaradılması ərəfəsində Naxçıvan əhalisi həddindən artıq ağır vəziyyətdə olsa da, onlar və bölgənin erməni təcavüzündən xilas edilməsində böyük rol oynayan görkəmli şəxsiyyətlərdən III Kalbalı xan Kəngərli Azərbaycanın çətin vəziyyətdə olan digər bölgələrinə, o cümlədən Laçına qardaş əlini uzatmış, köməklərini əsirgəməmişlər. Bunun yeganə fakt olmadığını və oxucular üçün maraq doğuracağını düşünərək həmin məlumatı olduğu kimi oxuculara çatdırmaq istəyirik.

Aşağıda bəhs olunacaq hadisənin əsas iştirakçısı olan Sarı Asdanın nəvəsi Asdan Həsənovun atası Əhlimandan eşitdiklərinə əsasən qələmə aldığı və “Laçın” qəzetində nəşr etdirdiyi məqalədən bir parçanı professor Şikar Qasımov kitabına daxil etmişdir. Monoqrafiyada oxuyuruq: “İlin qış fəslində Hocaz yüksəkliyində erməni hücumlarının qarşısını kəsən Sultan bəyin silahlı dəstələri şaxtalı havalardan əziyyət çəkirdi. Bir tərəfdən də silah-sursat çatışmazlığı işləri xeyli çətinə salmışdı. Vəziyyətin getdikcə gərginləşdiyini görən bəy ətrafında olan insanlara müraciət edir: “Bildiyiniz kimi, patron ehtiyatımız tükənmək üzrədir. Belə getsə, bir neçə gündən sonra erməni hücumlarının qarşısını ala bilməyəcəyik. Yeganə çıxış yolumuz Naxçıvana gedib Kalbalı xandan patron alıb gətirməkdir. Naxçıvana gedən yol isə ermənilər yaşayan kəndlərdən keçdiyi üçün təhlükəlidir. Buna görə mən istəyirəm ki, oraya gedəsi adamlar könüllü olaraq bu işi öz boyunlarına götürsünlər”. Sarı Asdan qabağa çıxıb deyir: “Bəy, mən gedərəm, bir şərtlə ki, Minkənddən Gülüm, Qarakeçdidən isə Ələkbər mənə yoldaşlıq etsinlər”. Sultan bəyin göndərdiyi adam səhəri gün Gülüm və Ələkbərlə birlikdə qayıdır. Onlar da Sarı Asdanın təklifi ilə razılaşıb yola çıxırlar. Asdanın qardaşı Musa bildirir ki, sağ-salamat qayıdın, bir öküz kəsib qurban paylayacam.

“İşıqlı dağı”ndan, “Qara göl”dən keçən atlılar dağ yolları ilə irəliləyir, qaranlıq düşəndə ermənilərin mal binələrinə yaxınlaşıb oradakı naxırçıları zərərsizləşdirir, şaxtadan qorunaraq səhəri gün yollarına davam edirlər. Bir neçə gündən sonra Naxçıvana yetişən atlıları yerli əhali “Sultan bəyin adamları gəldi”,– deyə hörmətlə qarşılayırlar.

Kalbalı xan gələnləri qəbul edib məclis qurdurur. Sarı Asdan Sultan bəyin məktubunu xana təqdim edir. Gələnlərin hər birinə bir ədəd əl-üz dəsmalı və bir süfrə bağışlayan xan yeddi qatırı patronla yüklətdirib onlara verir. Beş nəfər mühafizəçini isə bələdçi kimi onlara qoşur. Xan haradan gedəcəklərini soruşduqda Sarı Asdan bildirir ki, gəldiyimiz yolla qayıda bilmərik. Yəqin ki, ermənilər pusqu qurub bizi gözləyirlər. İran ərazisindən Xudafərin körpüsünü adlayıb Dağ Tumas, Kirs dağı istiqamətindən gedəcəyik. Üzü Laçın istiqamətinə irəliləyən kiçik karvan bir neçə gündən sonra Hadrud ərazisində ermənilərin mühasirəsinə düşür. Asdanın məsləhəti ilə gecənin düşməsini gözləyir və çətinliklə olsa da, mühasirədən çıxırlar. Hocaz dağına yetişən dəstə patronları Sultan bəyə təhvil verir. Bundan hədsiz dərəcədə sevinən bəy Sarı Asdanın alnından öpür və “nənəm sənə qurban, a Sarı oğul”,– deyə təşəkkürünü bildirir. Musa isə dediyi kimi, bir öküz kəsib qurban paylayır. Yeri gəlmişkən, onu da bildirim ki, Kalbalı xan verən hədiyyəni babam Sarı Asdan qızı Müxəstəyə hədiyyə edir, o da son illərə qədər qiymətli xatirə kimi onları saxlayırdı”.

Fikrimizcə, muxtariyyət ərəfəsində Naxçıvan bölgəsində yaranmış çox mürəkkəb vəziyyətdə erməni təcavüzünün dəf olunması, bölgənin erməni işğalından qorunması üçün müstəsna xidmətlər göstərən, o cümlədən əhalini bu iş üçün səfərbər edən və qarşıya qoyulan məqsədə nail olan III Kalbalı xan Kəngərlinin həyatından təqdim olunan bu fakt igid naxçıvanlıların təkcə Naxçıvanda deyil, ümumiyyətlə, bütün Azərbaycanda erməni təcavüzünün və vəhşiliklərinin qarşısının alınmasında göstərdikləri fədakarlığı parlaq şəkildə əks etdirən çox sanballı bir örnəkdir.

**Fəxrəddin SƏFƏRLİ**
***tarix elmləri doktoru, professor***

***Şərur rayonunun Dərəkənd və Yuxarı Daşarx kəndlərinin birləşdiyi ərazidəki o qədər də yüksək olmayan təpənin üzərində yerləşən bir tarixi abidə var. Abidənin yerləşdiyi ərazinin şimal-şərqində tarixi məzarlıq, şimal-qərbində isə böyük Şərur düzü yerləşir.***

# Səfəvilər dövründən xəbər verən abidə

Min illərin tarixinə, savaşlara, zəfərlərə şahidlik edib Şərur düzü – İsmayıl Səfəvinin şah olmadan öncə son zəfərini qazandığı Şərur düzü. Şəhidlər abidəsi tarixi qədim zamanlardan süzülüb gələn bir abidədir. Abidə haqqında qaynaqlarda məlumat yoxdur. Amma yerli əhali arasında onun haqqında bir neçə rəvayət mövcuddur. Bu rəvayətlərə nəzər yetirdikdə və abidənin yerləşdiyi coğrafi ərazini qiymətləndirdikdə, əslində, xalq rəvayətlərinin tarixi gerçəklikləri olduqca dəqiq əks etdirdiyinin şahidi oluruq. Əhali Şəhidlər abidəsi haqqında məlumatsızdır. Bu abidə haqqında indi ancaq yaşlı nəslin tək-tək nümayəndələri məlumat verə bilərlər. Abidə haqqında söylənilən xalq rəvayətlərindən birində deyilir ki, 1501-ci ildə İsmayıl Səfəvi ilə Ağqoyunlu Əlvənd Mirzə arasında baş verən Şərur döyüşü zamanı şəhid olmuş qızılbaşlar məhz burada dəfn edilmişlər. Ehtimal edilir ki, ordunun sıravi əsgərləri düzənlikdə, şəhid olmuş sərkərdə isə hörmət əlaməti olaraq digər qəbirlərdən nisbətən daha nəzərəçarpacaq bir yerdə – balaca təpənin üstündə dəfn olunmuşdur. Yuxarı Daşarx kənd sakini, tarix müəllimi İbrahim Əlizadə deyir ki, Şərur döyüşündən çox-çox əvvəl, qədim zamanlarda bu ərazi yaşayış məskəni olmuşdur. Sübut üçün qeyd edir ki həyətyanı sahədə işləyən zaman buradan çoxlu saxsı qablar, daş qəbirlər tapılmışdır.

Şərur düzündə baş vermiş bu döyüş çox qanlı keçmiş, qələbə qazanılsa da, çoxlu sayda Səfəvi əsgəri şəhid olmuş və yaralanmışdır. Deyilənə görə, müharibə qurtardıqdan sonra İsmayıl Səfəvi əmr verir ki, qoşun dincəlsin, ölənlər dəfn edilsin, yaralıların isə yaralarına baxılsın. Qoşunun susuzluqdan əziyyət çəkdiyini görən Şah İsmayıl bu ərazini “əcaib yer” adlandırmışdır. Həmin vaxtdan etibarən bu ərazi həm də xalq arasında “Əceyban” adı ilə də tanınmışdır. İsmayıl çapardan məlumat alır ki, Araz çayı yaxınlıqdadır, buna görə də Şah İsmayıl qoşunun dincəlməsi haqqında verdiyi əmri ləğv edir və ölənləri dəfn edib, yaralıları da götürərək Arazı keçirlər.

Abidənin adının isə xalq arasında seeddər və ya şəhidlər, bəzən isə seidlər kimi tələffüz edilməsi, əslində, abidənin adı ilə xalq rəvayətinin arasında da məzmunca uyğunluq olduğunu göstərir. Fikrimizcə, vaxtı ilə “şəhidlər” sözü həmin abidə də daxil olmaqla bütün qəbiristanlığa aid edilmiş, zaman keçdikcə qəbirlər təbii şəraitlə əlaqədar olaraq sıradan çıxmışlar. Abidənin qalıqları zaman keçdikcə dağıldığından sonradan yerli camaatın köməyi ilə bərpa edilmişdir. İndi bu qəbiristanlıq-abidə xalq arasında ziyarətgah kimi tanınır. Abidə altı künc formadadır, onun qapısı şərqə tərəf açılır, arxası isə qərbə tərəfdir. Deyilənlərə görə, abidənin arxa tərəfindəki tut ağacı da ən azı abidə ilə həmyaşıddır. Bu ağac yerli əhali tərəfindən “müqəddəsləşdirilərək” “dilək ağacı” kimi tanınmaqdadır.

***Zamin HƏSƏNOV***
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı***

# Basketbol turniri başa çatıb





Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş yeniyetmələr arasında basketbol üzrə Naxçıvan Muxtar Respublika turnirinə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi turnirdə 8 komanda mübarizə aparıb. "A" və "B" qruplarının hər birində 4 komanda olmaqla keçirilən yarışın reqlamentinə əsasən, qrup mərhələsini lider kimi başa vuran komandalar finala vəsiqə qazanıblar. İkinci pillənin sahibləri isə üçüncü yer uğrunda mübarizə aparıblar.

"A" qrupunda bütün rəqiblərini üstələyən Naxçıvan şəhərinin komandası "B" qrupunun lideri Ordubad komandası ilə finalda üz-üzə gəlib. Daha üstün oyun sərgiləyən Naxçıvan komandası 72:45 hesablı qələbə ilə turnirin qalibi adını qazanıb. Üçüncülük matçında isə "Lokomotiv" komandası culfalı həmkarlarından üstün olub – 35:28.

Sonda qalib komanda kubok, diplom və qiymətli hədiyyələr, digər iki pillənin sahibləri isə diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

# İstehsalçıların və istehlakçıların hüquqları qorunur

## *Gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə davam etdirilir*

***Gömrük orqanları tərəfindən muxtar respublikaya idxal istiqamətində gətirilən malların keyfiyyətinə nəzarət olunmaqla əhalinin sağlamlığının qorunması, istehlakçıların və istehsalçıların hüquqlarının müdafiəsi, bütün hallarda malların qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri cari ildə də davam etdirilir. Bu məqsədlə gömrük sərhədindən keçirilən ərzaq və qida məhsullarının keyfiyyətinə, standartlara uyğunluğuna, daşınma şəraitinə xüsusi fikir verilir, müvafiq tələblərə cavab verməyən mallar barəsində qanunvericilik çərçivəsində tədbirlər görülür.***

Cari ilin yanvar-may ayları ərzində idxal istiqamətində gətirilən, ancaq müvafiq standart və normalara cavab verməyən 40 tondan artıq ərzaq, qida və meyvə-tərəvəz məhsulu gömrük sərhəd-buraxılış məntəqələrində saxlanılaraq geri qaytarılmış, tez xarab olan 9,5 ton həcmində müxtəlif məhsullar barəsində qanunvericilik çərçivəsində operativ qərarlar qəbul edilmişdir. Elektrik enerjisinə qənaət olunması məqsədilə közərmə lampalarının muxtar respublikaya gətirilməsi məhdudlaşdırıldığından gömrük orqanları tərəfindən 4500 ədəd ən çox közərmə lampası saxlanılaraq barəsində müvafiq tədbirlər görülmüşdür.

Gömrük sərhəd-buraxılış məntəqələrindən geri qaytarılan və vaxtaşırı olaraq barəsində tədbirlər görülən mallardan başqa, cari ilin yanvar-may ayları ərzində saxlanılmış bir qrup malın may ayının 21-də yandırılaraq məhv edilməsi həyata keçirilmişdir. Yaşayış məntəqələrindən kənar ərazidə kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə məhv edilən ərzaq və qida məhsulları, əsasən, müxtəlifmarkalı meyvə şirələrindən, süd məhsullarından, balıq konservi, limon suyu, üzüm sirkəsi və sairdən ibarət olmuşdur. Belə mallar, əsasən, keyfiyyəti tələblərə cavab vermədiyindən, üzərində istehsal tarixi göstərilmədiyindən və ya istehlak müddəti bitdiyindən saxlanılmışdır.

Müvafiq dövlət orqanlarından xüsusi icazə sənədi alınmadan gətirilən 20 min ədəddən artıq partlayıcı fişəng və digər pirotexniki vasitələr, 36 adda müxtəlif dərman preparatı, o cümlədən psixotrop dərmanlar, müvafiq sertifikatı olmadığı üçün saxlanılan uşaq oyuncaqları da yandırılaraq məhv edilmişdir.

Məhv edilən mallar arasında kontrafakt, başqa sözlə, saxta mallar da yer almışdır. Məhz bəzi meyvə şirələrinin, enerji içkilərinin, yuyucu və təmizləyici vasitələrin istehsalının və qablaşdırılmasının saxta yolla aparıldığı müəyyən olunmuşdur.

Milli və iqtisadi təhlükəsizliyin, ictimai asayişin və insanların sağlamlığının qorunması istiqamətində tədbirlər də davam etdirilmişdir. Gömrük sərhəd-buraxılış məntəqələrində saxlanılmış xeyli sayda beşbarmaq, bıçaq, 21 kq əkinəyararlı çətənə toxumu və sair xüsusi qaydada məhv olunmuşdur.

Milli mentalitetə mənfi təsir göstərən ədəbiyyat və vasitələrin muxtar respublikaya gətirilməsinə qarşı mübarizə də diqqətdə saxlanılmış, əxlaq qaydalarına zidd olduğu üçün saxlanılmış jurnal və CD-lər də yandırılmışdır.

Həmin gün 5 adda, ümumilikdə, 691 ədəd Ermənistan Respublikasına aid müxtəlif vasitə və əşyalar da məhv edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# Həyat bəzən...



***Yaşıl və sarı rənglərin palitrası ilə sehrlənmiş düzlərə sükut çökür bir anda. Uçuşan qaranquşların yağışı müjdələyən səsindən başqa heç nə eşidilmir. Lap yaxınlığımızda uçuşmağa başlayırlar. Nə qəribədir ki, bir zaman sularda üzən gəmiyə torpaq müjdəsi gətirən qaranquşlar hər yaz yağışı öncəsi bizə Tanrının yer üzünə rəhməti olan yağışın yağacağını xəbər verir. Bəlkə də, hər yağış öncəsi yenə də o tufanı xatırlayıb dimdiyinə torpaq götürmək qorxusu ilə yerə yaxınlaşır qaranquş.***

Sonra anlıq sükutun ahəngini pozan bir mizrab səsi. Külək yaşıllaşan çinarların budaqlarında akkord tutur. Küləklərin vıyıltısında bir ney səsi, yağışın taqqıltısında bir dəf ahəngi. Öz səmazən rəqsinə başlar ana təbiət. Gəmiqaya üzərində əlini göyə açmış insan təsvirləri qoşular təbiətə. Nə qəribədir ki, bir addımlıq quru torpaq tapmaq arzusu ilə göyə əl açmış insan təsvirləri, indi su diləyər bu torpaqlara. Dillənər göy, sellənər yağış, təmizlənər qalxan toz-duman və təmizlənər insan. Qoşulmaq istər təbiətin ahənginə, bürünmək istər təbiətin rənginə, damla olub göydən yerə axmaq istər, insanların fövqündə dayanıb çarpışmaqdan yorğun düşmüş insanlara baxmaq istər, qoşulub Naxçıvançayın sularına Araza doğru axmaq istər.

Ya da bir damla olub Biçənək yaylaqlarında sürülərini otaran bir çobanın yapıncısına düşmək, təbiətlə vəhdətdəki insanın daha səmimi olduğunu görmək istər. Ya da lavaşını, pendirini, sərin ayranını götürüb, çöllərdən yarpız toplayıb, çiynində kərənti biçinə gedən biçinçinin daldalandığı ağacın yarpağının üzərində bir damla olmaq istər.

Az sonra barlı-bərəkətli düzlərə rəhmət olan yağış kəsər və parlayar yenə yaz Günəşi. Qırmızı, yaşıl və səma rənginin vəhdətində bir göy qurşağı və eyni rənglərin vəhdətini əks etdirən bayraq.

Bu anda xatırlayarsan ki, həyat bəzən olduğun mühitdən qopmaqdır, özünü qaranquş səsində, yağışın damlasında, qəfil dəyişən yaz havasında tapmaqdır.

✍ **Elnur KƏLBİZADƏ**

***Mayın 22-də Naxçıvan Muxtar Respublikasının 90 illiyi ilə əlaqədar "Naxçıvanım mənim" mövzusunda Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər müəssisələrin uşaqları arasında müsabiqəyə start verilib.***

# Uşaqlar arasında müsabiqə keçirilir



Müsabiqənin ilk günündə Naxçıvan şəhərindəki 1, 3, 10, 11, 15 nömrəli bağçaların balaca fidanları məharətlərini nümayiş etdiriblər. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova açaraq bildirib ki, ümummilli lider Heydər Əliyev tez-tez uşaqlarla görüşür, onların sağlam, bilikli və hərtərəfli böyümələri üçün tapşırıq və tövsiyələr verir, bu sahədə mühüm əhəmiyyətli fərman və sərəncamlar imzalayaraq dövlət uşaq siyasətinin uğurla həyata keçirilməsi üçün hüquqi baza hazırlayırdı.

Bu gün də ölkəmizdə uşaq və yeniyetmələrə göstərilən diqqət və qayğı, onlara yaradılan hərtərəfli şərait dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov müsabiqənin şərtləri haqda məlumat verərək uşaqlara uğurlar arzulayıb. Sonra uşaqlar Naxçıvanın 90 illiyinə həsr olunmuş müxtəlif şeirləri bədii qiraət edib, mahnılar oxuyub və rəqslər ediblər.

Bu gün müsabiqə 4, 5, 6, 7 və 12 nömrəli uşaq bağçalarının uşaqları arasında keçiriləcək. May ayının 27-də müsabiqəyə yekun vurulacaq.

✍ **Sona MİRZƏYEVA**

***Naxçıvan Dövlət Universitetinin Fənlərin tədrisi metodikası kafedrasının müdiri, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, pedaqoji elmlər doktoru Elbəyi Maqsudovun "Poetik türkəçarələr" kitabındakı şeirləri bitkilərin hansı xəstəliyə dərman olduğunu uşaqların yaş səviyyələrinə uyğun şəkildə anladır. Bu kitab həm də bitkiləri uşaqlara tanıtmağın başqa bir üsulu kimi də diqqəti çəkir.***

# Ana dilimizin tədrisinə həsr olunmuş poetik kitab




Elbəyi Maqsudovun təkrar çapdan çıxmış, təkmilləşdirilmiş "Poetik-praktik Azərbaycan dili" kitabı isə Azərbaycan dilinin öyrədilməsi, onun tədrisi haqqında pedaqoji poemadır. Azərbaycan dilini sevərək tədris etməyi öz yaradıcılıq amalına çevirmiş Elbəyi Maqsudovun bu poeması tədris tariximizdə iz qoyacaq bir əsərdir. Dilçilikdə işlənən terminlərin hərəsinə bir şeir qoşub onu uşaqların anlaya bildiyi səviyyədə təqdim etmək özü də bir elmi-pedaqoji, poetik bacarıqdır.

E.Maqsudovun adıçəkilən kitabını vərəqlədikcə dilçilik terminlərinə həsr olunmuş şeirlərin başlıqlarının belə, maraq doğurduğunun şahidi oluruq. "Felin dastanı", "Bəlkə", "Ara sözlər", "Təksaitli bayatılar", "Leksika gəmisi" və sair onlarla belə termin poetik dillə izah olunur.

Biz əyləncəli riyaziyyat eşitmişdik, amma əyləncəli Azərbaycan dili anlayışına geniş mənada Elbəyi Maqsudovun yaradıcılığında rast gəlirik. Kitabdakı şeirlərin başlığına diqqət yetirək: "Cümlənin mədhi", "Hökmdar cümlə və sədaqətli dostlar", "Cümlədə mübtəda siyasəti", "Mübtədanın xitabı qısqanması", "Cümlə üzvlərinin qarın davası", "Ara sözlər və xitabın köhnə yurda qayıtması", "Tabeli mürəkkəb cümlənin budaqlanmaq həvəsi" və sair və ilaxır. Təbii ki, təkcə uşaqlar yox, elə böyüklər də bu maraqlı adların altında hansı mahiyyətin gizləndiyini bilmək istəyəcəklər.

Bu bir həqiqətdir ki, müəllimin əsas bacarıqlarından biri məktəblilərdə tədris etdiyi fənnə maraq oyatmaqdır. Bunun üçün məcburiyyət yoxdur. Məcburiyyət müəllimin şagirddə dərsə məhəbbət yarada bilməsidir. Elə bu məqsədlə də müəllim fənnin incəliklərini bilməklə yanaşı, onu emosional şəkildə tədris etməlidir.

Elbəyi müəllimin şeirləri qismən təmsilvari, qismən poetik tapmaca, bir sıra hallarda isə təhlil üçün poetik açar rolunu oynayır. "Fonetika" bölməsində fonetik-leksik çalışmalar verilir. Məsələn: "Zəncirlə bağlanmayan bir pambıqla bağlanar" (cavabı tələffüz zamanı dodağın dəyməsidir).

Elbəyi Maqsudov şeirlərində gülməli məqamların olmasından narahat olmur. Hecaların sonunda "n" samitinin işlənməsini şərti olaraq "Burunlama" adlandırır. "Çəliklənmiş çəriş" şeri isə klassik uşaq şeirləri cərgəsinə çatmağa cəhd edir. "Apostrofun monoloqu" şeri elmi təmsil rolunu oynayır: "Sanmayın ki, e`lan ilə ad çıxarıb mən yatmışam, Cür`ət edib "bə`zən", "mə`dən" sözlərində Yeni mə`na, yeni məzmun yaratmışam". Doğrudur, "bə`zən", "mə`dən" sözlərində apostrof məna fərqlərini öz yerinə qoyurdu, indi isə danışanın özü bu fərqi aydınlaşdırmaq üçün saitlərin uzanmasını tələffüzündə bildirməlidir. Belə misalların sayını artırmaq da olar.

"Cümlələrin söhbəti" qrammatik poemasını təhlil etmək çətindir, onu oxumaq və öyrənmək ən doğru yoldur.

300 səhifəlik kitab zəngin poetik çələnglərlə dolu bir gülzardır. Bu şeirlər bir gündə yox, heç bir ildə də yazıla bilməz. Elbəyi Maqsudov bu şeirlər üzərində nə müddət imiş ki, işləyirmiş. Bu şeirlər onun poetik istedadına və elminə inandığı vaxtdan yaranıb ki, bu da, mənim fikrimcə, 40 illik bir vaxt deməkdir.

Geniş təhlilə ehtiyacı olan bu zəngin kitabın Azərbaycan Dövlət Mükafatına təqdim edilməsi sevindiricidir. Fikrimizcə, şair-pedaqoq, alim E.Maqsudovun kitabı bu mükafata layiqdir.

**Seyfəddin EYVAZOV**
***filologiya üzrə fəlsəfə doktoru***

## *Allah rəhmət eləsin*

Naxçıvan Dövlət Universitetinin əməkdaşlarından Zəhmət Şahverdiyev, Allahverdi Hüseynov, İlqar Kəngərli, Xəzər Hüseynov, Dağlar Məmmədov və Nadir Hüseynbəyli iş yoldaşları Qəhrəman və Aypara Behbudovlara, əzizləri **NOVRUZUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasının kollektivi kitabxananın direktoru Aypara Behbudovaya, atası **NOVRUZUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Muxtar Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 460**